# ŞAGİRDLƏRDƏ TEXNOLOJİ HAZIRLIĞIN KOMPETENSİYA ƏSASINDA FORMALAŞMASI



**Şahrza Ağayev,**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti,*
*pedaqogika üzrə fəlsəfə doktoru, qabaqcıl təhsil işçisi*
*e-mail: sharza-a@mail.ru*

**UOT:** 37

**Xülasə**. *Məqalədə şagirdlərin texnoloji hazırlığının kompetensiya əsasında formalaşması ilə əlaqədar nəzəri və praktiki problemlər geniş tədqiq olunmuş, təhsil sistemində yeni təlim texnologiyalarının kompetensiya prinsiplərinə uyğun tətbiqi öyrənmə prosesinin səmərəliliyini və keyfiyyətini yüksəldən amil olduğu əsaslandırılmışdır. Eyni zamanda kompetensiyanın situasiyadan irəli gələn və qarşıda duran hər hansı konkret məsələni həyata keçirtmək üçün fəaliyyətdə olanın sərf etdiyi texnoloji bacarıq olması, texnologiya dəyişməyə və inkişaf etməyə davam etdikcə bu proseslərin nəticələrini etik qiymətləndirməyi bacaran bir nəsil tələb olunması və müasir tədrisin əsas anlayışlarından olan kompetensiya bir çox müsbət keyfiyyətlərin açarı kimi yaşadığımız qlobal rəqəmsal dünyada XXI əsrin Avropa müəlliminin kompetentliyinin göstəriciləri kimi təsbit edilmişdir.*

***Açar sözlər:*** *kompetensiya, prioritet, bilik, bacarıq, vərdiş, dəyər, keyfiyyət, texnoloji.*
***Key words:*** *competence, priority, knowledge, skill, habit, value, quality, technological.*
***Ключевые слова:*** *компетентность, приоритет, знание, умение, привычка, ценность, качество, технология.*

“Azərbaycan Respublikasında təhsil sahəsində İslahat Proqramı” yeni təlim metodlarından və texnologiyalarından istifadənin elmi, pedaqoji-psixoloji əsaslarının işlənilməsini nəzəri və praktiki problem kimi qarşıya qoymuşdur. Təhsil sistemində yeni təlim texnologiyalarının kompetensiya prinsiplərinə uyğun tətbiqi öyrənmə prosesinin səmərəliliyini, keyfiyyətini yüksəldən əsas amil olması inamla qeyd olunur:

*– tədris prosesi nəticəyönümlü proses olduğundan, məqsədi əvvəlcədən müəyyənləşdirilmiş və şagirdə istiqamətlənmiş təlim həyata keçirilməlidir;*

*– tədris və təlim bir-biri ilə sıx bağlı olduğundan daim qarşılıqlı əlaqədə götürülməlidir;*

*– tədris prosesi hər birinin öz rolu və statusu olan bir neçə fərdlərin əməkdaşlığından irəli gələn sosial bir proses olub inkişaf rejimində fəaliyyət göstərməlidir;*

*– tədris prosesi qarşılıqlı əlaqələrin xarakterindən, mühitin xüsusiyyətlərindən, təhsil müəssisələrinin əhatəsindən asılı olub, onların daxili quruluşundan irəli gələn verbal və sensor davranışların məcmusunu özündə birləşdirməlidir.*

Müəllimlər yeni texnologiyalardan istifadə etməklə dərsləri daha maraqlı edən, şagirdləri sağlam mühakimələr irəli sürməyə, sonradan real həyata tətbiq edəcəkləri məzmunu başa düşməyə yardım edən mühüm vasitələrə çevirməlidirlər. Kompetensiya prinsipləri, yeni təlim metodları təhsilin məzmununu daha yaxşı mənimsəmək və şagirdlərin müstəqil cavab vermək məqsədi ilə

tələb olunan təfəkkür prosesini inkişaf etdirmək üçün çox faydalıdır.

Predmet və hadisələrin ümumi, mühüm əlamətlərini əks etdirən fikir və təfəkkür forması olan **anlayış** real gerçəkliyin dərkində əsas rol oynayır. Obyektiv gerçəkliyin özündə anlayış yoxdur, bunlar insan şüurunda meydana gəlir və gerçəklikliyin predmetlərini, hadisə proseslərini əvəz edir. İnsan təbii ünsiyyət dilinin və formalaşmış dillərin köməkliyi ilə əldə olunmuş bilikləri sistemləşdirir, nəsildən-nəslə keçirir və inkişaf etdirir.

Təlim prosesini aktivləşdirmək üçün düşünmə qabiliyyətini inkişaf etdirmək, yaradıcılığa həvəsləndirmək və öyrənməyə maraq yaratmaq məqsədini güdən müəllim şagirdi təlimə cəlb edəcək müəyyən metod, texnika və prosedurlardan istifadə etməlidir. Şagird təlimin fəal iştirakçısı olmaq üçün hazırlanmalıdır. Müəllim şagirdə dünyanı başa düşməkdə və qazandığı bilikləri real həyat şəraitinə tətbiq etməkdə yardım göstərməlidir. Araşdırmalar göstərir ki, yeni təlim texnologiyaları aşağıdakı prinsiplərə əsaslandıqda şagirdlərin yaradıcılıq qabiliyyətini inkişaf etdirməyə təminat verir:

– *təfəkkürün inkişafına səbəb olacaq konstruktivizmə;*

– *biliklərin müstəqil əldə edilməsi üçün şəraitin yaradılmasına;*

– *bilik və bacarıqların müstəqil şəkildə əldə edilməsinə;*

– *müəllimin təşkilatçı, koordinator rolunda çıxış etməsinə;*

– *şagirdlərin sosial inkişafına səbəb olacaq kooperativ təlimə (kooperativ təlim tələbələrin kiçik bir qrupda xüsusi vəzifələri yerinə yetirmək üçün birlikdə işlədiyi fəal təlimdir).*

“Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən, hazırlanmış ümumi təhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları) milli və bəşəri mahiyyət daşımaqla qloballaşma şəraitində şagirdlərin texnoloji hazırlığının nəzəri və praktiki problemlərinin həllinin kompetensiya əsasında formalaşmasına imkan verir. Bu prosesdə dövlət standartları ümumi təhsilin aşağıdakı cəhətlərini – *məzmununu, idarə olunmasını, maddi-texniki və tədris bazasını, infrastrukturunu, təhsilverənlərin keyfiyyət göstəricilərini, təhsilalanların bilik, bacarıq və vərdişlərinin səviyyəsini* müəyyən edir.

**Kompetensiya** latın sözü “competentia” olub, *“bacarıq, səriştə, qabiliyyət”, “mühakimə etməyə səlahiyyətli”, “danışmağa hüququ olmaq”* mənasını verir. Kompetensiya mahiyyətcə geniş proseslərin həllinə aid olan əməliyyatları bildirir. Bura daxildir:

– *bilik və bacarıqlar əsasında qazanılan dəyər;*

– *təhsilalanların nailiyyət səviyyəsinə qoyulan dövlət tələbi;*

– *situasiyadan irəli gələn tələblərə cavab vermək üçün bilik, bacarıq, vərdiş, dəyər və keyfiyyətləri fəaliyyət meyarlarına müvafiq şəkildə tətbiq etmək;*

– *idrak prosesində həyata keçirilən fəaliyyət;*

– *situasiyadan irəli gələn xüsusi bacarıqlar (natiqlik, liderlik, idarəçilik bacarıqları) və dəyəri tətbiq etmək.*

***Kompetensiya*** situasiyadan irəli gələn və qarşında duran hər hansı konkret məsələni həyata keçirtmək üçün fəaliyyətdə olanın sərf etdiyi texnoloji bacarıqdır. Texnologiya dəyişməyə və inkişaf etməyə davam etdikcə bu proseslərin nəticələrini etik qiymətləndirməyi bacaran bir nəsil tələb olunur. Peşəkar və səriştəli müəllim kompetensiya (bilik+bacarıq+vərdiş+dəyər+keyfiyyət) tələblərinin həlli baxımından digər ixtisaslarından fərqli olaraq aşağıdakı keyfiyyətlərə malik olmalıdır:

– *peşəkar və səriştəli müəllim bütün varlığı ilə öz peşəsinə bağlanan, işini sevən, tədris etdiyi fənni dərindən və hərtərəfli bilən mütəxəssisdir;*

– *pedaqoji proseslərə səriştəliliklə yanaşır, mürəkkəb problemləri ustalıqla həll edir;*

– *daim yeniliklər axtarması, pedaqoji prosesə yaradıcı yanaşması peşəkarlığını daha da dərinləşdirməyə və axtarışda olmağa sövq edir;*

– *planlaşdırdığı işlərin nəticələrini əvvəlcədən görə bilir, gələcəyi düşünərək, şagirdlərə nikbin yanaşır, onların problemlərinə laqeyd qalmır və övladları kimi münasibət bəsləyir;*

– *dərs verdiyi şagirdlərə dəyər verir, onları şəxsiyyət kimi qəbul edir;*

– *nitqi, davranışı, mimikası təsirlidir, verbal və qeyri-verbal ünsiyyət tərzləri bir-birini tamamlayır [1. s.19-20].*

Kompetensiya = bilik+bacarıq+vərdiş+dəyər

+keyfiyyət bərabərliyi ilə formula etmək olar. Ümumiyyətlə, kompetensiyanın formalaşması üçün şagird müəllimin qoyduğu suallara cavab tapmağı texnoloji ardıcıllıqla öyrənməlidir. Bu, şagirddən fəal, yaradıcı iş, alınmış məlumatı təhlil etmək bacarığı səriştəsini tələb edir. Bunun üçün müəllim dərs apararkən həmişə problemli situasiya yaratmalıdır. Bu isə şagirdi dərsi düşünülmüş şəkildə qavramağa, yaradıcılığını inkişaf etdirməyə təhrik edir.

Müasir tədrisin əsas anlayışlarından olan kompetensiya bir çox müsbət keyfiyyətlərin açarıdır. Yaşadığımız qlobal rəqəmsal dünyada XXI əsrin Avropa müəlliminin kompetentliyinə daxildir: ***savadlılıq; yaradıcı təfəkkür; ünsiyyət; nəticəlik.***

**Savadlılıq** yeni pedaqoji texnologiyalardan və İKT-dən istifadə bacarığını şagirdlərə öyrənməyi öyrətmək bacarığını alınan biliyin həyati biliklərə çevirmə bacarığını və s. özündə birləşdirir. ***Yaradıcı təfəkkür*** bilikləri bir-biri ilə uzlaşdıraraq yeni bir bilik yaratma bacarığıdır. ***Ünsiyyət*** kommunikativ sosial biliklərə əsaslanaraq müəlim-şagird, şagird-şagird, şagird-müəllim-valideyn ünsiyyətinin qurma bacarığıdır. ***Nəticəlik*** hər bir görülən işin, aparılan dərsin nəticəsinin olmasıdır.

Təlim şagirdlərin *bilik, bacarıq, vərdiş* və *dəyərlərə* yiyələndiyi pedaqoji prosesdir. Təlim zamanı öyrənmə fəaliyyətləri şagirdlərin təlimin məqsədini tam başa düşməsi üçün bir neçə fəaliyyətin yerinə yetirilməsini təmin edir.

**Bilik** insanın özü və onu əhatə edən aləmin amilləri haqqında məlumat toplusu olub geniş şəkildə səciyyələnir, eyni zamanda bilik praktiki fəaliyyət və peşəkar təcrübə nəticəsində alınan predmet sahəsinin qanunauyğunluqları olub həmin sahədə mütəxəssislərə məsələ qoymağa və həll etməyə imkan verir. Biliklərə yiyələnmək işində çətinliklərin aradan qaldırılması şagirdin praktikasına yaxşı təsir göstərir, onlarda öz qüvvəsinə inam yaradır. Eləcə də məlumatın mexaniki mənimsənilməsi, formul və təriflərin şüurun iştirakı olmadan əzbərlənməsi biliklərin formal mənimsənilməsinə səbəb olur.

**Bacarıq** bilik, təcrübə, vərdiş nəticəsində əldə edilmiş şagirdin işgörmə qabiliyyətidir. İnsan arzusunu həyata keçirtmək üçün öz səyi və bacarığı sayəsində istədiyi məqsədə nail ola bilər. Bacarıq şagirddə əmək vərdişlərini formalaşdırır, onu müstəqilliyə və yaradıcılığa alışdırır. Deməli, bacarıq biliyi məqsədyönlü formada həyata keçirir. Bu səbəbdən tədris olunan bütün fənlər bilik və bacarıqlar səviyyəsində öyrənilməlidir. Məsələn, həndəsəni öyrənmək üçün təkcə teoremləri bilmək kifayət etmir, eyni zamanda onu isbat etmək bacarığına yiyələnmək lazımdır. Bu yanaşma nəzəri və praktiki olaraq problemin həlli deməkdir.

**Vərdiş** şagirdin təlim prosesində qazandığı biliyin bacarığa çevrilməsi prosesinin intensivləşdirilməsi hadisəsidir. Geniş mənada vərdiş insanın təlim və iş prosesi dövründə qazandığı, təkmilləşdirdiyi və lazım olan anda asanlıqla tətbiq edə bildiyi avtomatlaşmış hərəkətləridir. Hərəkətlərin yalnız tənzim və icra üsulları avtomatlaşır, sensor nəzarət saxlanılır. Hər hansı bir bacarığı dəfələrlə təkrarlayan şagird onu vərdişə çevirmiş olur.

**Dəyər** insanın özünün fiziki və mənəvi varlığını qoruyub saxlaması, onun arzu və tələbatlarının ödənilməsi üçün yaşadığı cəmiyyətin və mühitin qəbul etdiyi ortaq dünyagörüşü, məqsəd, əxlaq normaları və inanclarıdır. Şagirdin, nəinki cəmiyyətdən, həmçinin ailədən, dövlətdən qazandığı milli və mənəvi dəyərlər onun şəxsiyyət kimi formalaşmasında əsas rol oynayır. Ümumiyyətlə, dəyərlər şəxsiyyəti formalaşdıran keyfiyyətlərdəndir. Şagirdin nailiyyəti isə bilik və bacarıq əsasında əldə olunub formalaşan dəyərlər sisteminə aiddir.

**Keyfiyyət** insanın vətənpərvərlik, demokratiklik, humanistlik kimi hisləri özündə cəmləşdirməsi, yoldaşına kömək etməsi, böyüklərinə hörmət etməsi, səbirli və qətiyyətli olması, cəsarətliliyi, özünü ələ ala bilməsi, inamı, xeyirxahlığı, məsuliyyətliliyi, intizamlılığı, işgüzarlığı, mərdliyi kimi xüsusiyyətləri özündə birləşdirməsi ilə kompetensiyanı formalaşdıran amillərdəndir. Hazırda psixoloq və pedaqoqlar şagirdlərin bütün fəaliyyətini əhatə edən biliklərin dörd səviyyəsini müəyyənləşdirmişlər: ***tanışlıq səviyyəsi; biliklər səviyyəsi; bacarıqlar səviyyəsi; vərdişlər səviyyəsi.***

**Texnologiya** yunan sözü olub, “techne” (bacarıq) və “logos” (elm) sözlərindən yaranmış, məhsulun hazırlanması bacarığı, istehsal proseslərinin yerinə yetirilməsi üçün üsul və vasitə-

lər haqqında biliklərin məcmusudur. Pedaqoji texnologiya dedikdə, prosesin təsviri, məzmunlu texnikası, birgə fəaliyyət modelini müəyyən edən sahə kimi başa düşülür. Mahiyyətinə görə isə təlim-tərbiyə prosesinin layihələşdirilməsinin sistemli metodudur. Bu fəaliyyətin əsasını elmi faktların toplanması, onların daima yenilənməsi və sistemləşdirilməsi, tənqidi təhlil əsasında elmi biliklərin toplanması təşkil edir.

**Elm** təbiət, cəmiyyət, insan təfəkkürü haqqında obyektiv, sistemli, əsaslandırılmış biliklərin əldə edilməsinə, dəqiqləşdirilməsinə, yayılmasına yönəlmiş insan fəaliyyəti növüdür. Elm, təkcə müşahidə edilən təbiət və ictimai halları təsvir etmir, həm də onların əlaqələrini tapır və nəticəni müəyyən edir. İnsanların fəaliyyət sahəsi genişləndikcə biliklərin əhatə dairəsi də böyümüş olur. Konfutsi dərk olunmuş və dərk olunmamış biliyi fərqləndirərək deyirdi: *"Əsl bilik – bildiyin şeyi bildiyini, bilmədiyin şeyi isə bilmədiyini bilməkdir"*. Biliklərin əmələ gəlməsi insanların öz tələbatını ödəmək üçün xarici aləmə fəal maddi təsiri ilə bağlıdır [2. s.8].

Şagirdlər üçün texnoloji olaraq əlavə addımların atılması, tədris materialının onlar tərəfindən əsaslı dərk olunması təşkil edilməlidir. Bu məqsədlə müəllim şagirdlərin şüurunu hərəkətə gətirməli, onları düşünməyə, fikir yürütməyə vadar etməli, pedaqoji prosesdə şagirdlərin diqqətini öyrənilən hadisələrdə səbəb-nəticə əlaqələrinə yönəltməlidir. Müəllimin rəhbərliyi ilə şagirdlərin müəyyən əqli nəticələr çıxarması vacibdir. Bütün bunlar şagirdlərdə kompetensiyaların intensiv şəkildə formalaşmasına təminat verir. Nəticədə şagirdlər idrak əməliyyatları olan müqayisəyə, təhlilə, ümumiləşdirməyə, mücərrədləşdirməyə daha çox müraciət etməli olurlar.

Tədrisdə kompetensiyalar fənlər üzrə müxtəlif tələblər qoyur. Şagirdlər ana dilində və ən azı bir xarici dildə ünsiyyət qurub danışa bilməli, riyazi savadı olmalı, elm və texnologiyada sadə və mürəkkəb bacarıqlara sahib olmalı (kompüter proqramını bilməsi, slayd qura bilməsi və s.), sosial və vətəndaşlıq, yenilik və sahibkarlıq hissi, müstəqil öyrənmə kompetensiyaları olmalıdır. Qeyd olunan bacarıqlar digər bacarıqları mənimsəməkdə optimallıq yaradır. Məsələn, ***texniki kompetensiyada*** – şagird gördüyü işin əsas tərkib hissəsini müəyyən etməyi bacarmalıdır; ***davranış kompetensiyası*** şəxsi keyfiyyətlərin təsviri üçün nəzərdə tutulan bacarıqdır; ***siyasi və sosial kompetensiyalar*** oz üzərinə məsuliyyət götürmək bacarığı, birgə qərar qəbul etmək bacarığıdır; ***çoxmədəniyyətli cəmiyyətin həyatı ilə əlaqəli kompetensiyalar*** tolerantlıq, irqi ayrı-seçkiliyə qarşı olmaqdır; ***şifahi və yazılı ünsiyyətdə kompetensiyalar*** orta təhsilli insanın ictimai həyatda şifahi və yazılı ünsiyyət hazırlığını bildirən bacarıqlardır; ***İKT sahəsində kompetensiyalar*** isə informasiya texnologiyalarını tətbiq etmək, reklam vasitəsilə yayılan xəbərlərə tənqidi yanaşma bacarığıdır.

Metakompetensiyalar əsas bacarıqlardan əlavə şagirddə daha da böyük bacarıqların formalaşmasıdır: **tənqidi təfəkkür** (məsələn, sinifdə müzakirə olunan mövzuya şagirdin yanaşması); **yaradıcı yanaşma** (şagirdin mövzuya daha yaradıcı yanaşaraq onu dərk etməsi); **təşəbbüskarlıq** (şagirdin bilik ehtiyatını toplaması, fürsətləri qiymətləndirməsi, insanların ictimai ünsürlər kimi faktorları onların təşəbbüskarlıq səviyyəsinə təsir edir); **problemlərin həlli** (öyrənənlərin problemin həlli yolunu daha tez və sadə yolla tapmağa qadir olması).

Şagirdlərin təlimini diferensial yanaşma üzərində qurmaqla onların fərdi xüsusiyyətlərindən, hazırlıq dərəcəsindən asılı olaraq proqram materiallarını müxtəlif səviyyədə dərk etmə-sini müşahidə edirik. "Diferensiasiya" (difference) latın dilindən tərcümədə *"bölünmə"* deməkdir, yəni bütövün müxtəlif hissələrə, formalara, səviyyələrə ayrılmasıdır. Bu, tədrisdə şagirdlərin hərtərəfli təhsilini təmin edən metodiki, psixo-pedaqoji və təşkilati tədbirlər kompleksidir. Diferensiasiyada məqsəd hər kəsin öz baca-rığı, imkanları səviyyəsindən öyrənməyə davam etməsini təmin etməkdir. Şagirdlərin idraki fəallığı öyrənmənin hərəkətverici qüvvəsidir. Bu məqsədlə ümumtəhsil məktəblərində kurikulum islahatının uğurla tətbiq olunması üçün milli və bəşəri zəmində kompetensiyalar meto-doloji əsas kimi yaradılmışdır.

Şagirdlərin bilik və fəaliyyətinin təmin edilməsi yeni pedaqoji təfəkkürün başlıca prinsipləri – demokratikləşmə, humanistləşdirmə, fərdiləşdirmə, diferensiallaşdırma, inteqrasiya, şəxsiy-yətin formalaşdırılması və inkişaf etdirilməsi ilə uyğunluq təşkil edir. Təlim hazırlığı zamanı qazanılan ba-

carıqlar dinamik səciyyə daşıyır və insan kapitalı ilə bağlı olan tələblərə uyğun dəyərlər qazanmağa töhfə vermiş olur. İnsan kapitalı geniş mənada inkişaf kapitalının səmərəli fəaliyyətini təmin edən işçi qüvvəsinin təhsilli hissəsidir; biliklər, intellektual və idarəetmə əməyi üçün alətlər, yaşayış mühiti və əmək fəaliyyəti daxil olmaqla iqtisadi inkişafın, cəmiyyətin və ailənin tərəqqisi üçün intensiv məhsuldar amildir.

**Nəticə.** Şagirdlərin texnoloji hazırlığının aktuallıq təşkil edərək kompetensiya əsasında formalaşması pedaqoji prosesdə əsas komponentlərin növləri ilə funksionallıq təşkil edir. Təlim prosesində praktik işlərdən faydalanarkən vaxt itkisinə yol vermədən, iqtisadi cəhətdən əlverişli, ekoloji baxımdan heç bir tullantı olmadan məmulatın hazırlanması, onların müqayisəsi, texnoloji əməliyyatlardan (nişanlama, qatlama, ölçmə, kəsmə, biçmə, tikmə, birləşdirmə) istifadə, birgə fəaliyyət bacarıqları, təhlükəsizlik texnikası və sanitariya-gigiyena qaydalarına əməl etməklə, yaradıcılıq nümayiş etdirərək müvafiq model və layihələr qurmağa nail olmaqla kompetensiyanın tamlığı təmin olunur.

## ƏDƏBİYYAT

1. İlyasov M.İ. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri. Monoqrafiya, Bakı, Elm və təhsil, 2018, 208 səh.

2. Ağayev Ş.O. Texnologiya və onun tədrisi metodikası (bakalavrlar üçün mühazirə mətnləri). Bakı, ADPU-nun nəşriyyatı, 2021, 294 səh.

3. Ağayev Ş.O. Şagirdlərin bilik və fəaliyyətinin təmin edilməsi. “Azərbaycan müəllimi” qəzeti, 10 dekabr 2021, səh. 13.

4. Sadıqov F.B. Pedaqogika. Bakı, Bakı Biznes Universitetinin nəşriyyatı, 2006, 556 səh.

**Sh.Aghayev**

## Formation of technological readiness in students on the basis of competency

### Abstract

The article extensively studies the theoretical and practical problems related to the formation of technological training of students on the basis of competence and proves that the application of new learning technologies in the education system in accordance with the principles of competence is a factor increasing efficiency and quality. At the same time, the role of competence as a technological skill used by an individual to accomplish any specific task that arises from the situation, the need for a generation capable of ethically evaluating the results of these processes as technology continues to change and evolve, and the place of competence as one of the key concepts of modern teaching positive qualities have been identified as indicators of the competence of the European teacher of the twenty first century in the global digital world in which we live.

**Ш.Агаев**

## Формирование технологической подготовки студентов на основе компетентности

### Аннотация

В статье широко исследуются теоретические и практические проблемы, связанные с формированием технологической подготовки студентов на основе компетентности, обосновывается, что применение новых технологий обучения в системе образования в соответствии с принципами компетентности является фактором повышения эффективности и качества. В то же время компетентность – это технологическое умение, используемое индивидуумом для выполнения какой-либо конкретной задачи, возникающей из ситуации, потребность в поколении, способном этически оценивать результаты этих процессов по мере того, как технологии продолжают меняться и развиваться, а компетентность одно из ключевых понятий современного преподавания выделены положительные качества как показатели компетентности европейского учителя XXI века в глобальном цифровом мире, в котором мы живем.